2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 yanvar 2020-ci il tarixli 56 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 7 yanvar 2020-ci il

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 62 saylı Saatlı seçki dairəsindən Saatlı bələdiyyəsi üzrə qeydə alınmış namizəd Nəzərli Təzəgül Rza qızı 4 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək, dairə seçki komissiyasının 27 dekabr 2019-cu il tarixli 39/93 saylı qərarını mübahisələndirmiş, hüquqlarının pozulduğunu iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən müvafiq rəy verilməsi üçün ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmişdir.

Namizəd müraciətində göstərmişdir ki, səsvermə günü ona verilmiş səslər gizlədilmiş və buna görə də 25-26 dekabr 2019-cu il tarixlərində 62 saylı Saatlı seçki dairəsinin dairə seçki komissiyasına (dairə seçki komissiyası) ərizə vermiş, komissiya isə həmin müraciətlərə 27 dekabr 2019-cu il tarixdə baxmış, müraciətlərin təmin edilməməsi barədə qərar qəbul etmişdir.

Araşdırma prosesində T.R.Nəzərli ilə əlaqə saxlanılmış, ona hər hansı sənəd və materiallar təqdim etmək, araşdırma və iclasda iştirak etmək və digər hüquqlarının olması izah edilmiş, o, hər hansı bir sənəd və materiala malik olmadığını bildirmiş, ona iclasın vaxtı barədə məlumat verilmişdir.

Dairə seçki komissiyası mübahisələndirilən qərarını onunla əsaslandırmışdır ki, qeydə alınmış namizəd T.R.Nəzərli Saatlı bələdiyyəsinin ərazisində mövcud olan 10 seçki məntəqəsi üzrə səsvermənin nəticələri ilə razılaşmamış, topladığı səslərin onu qane etmədiyini bildirmiş, bu səbəbdən səslərin yenidən sayılmasını tələb etmiş, iddia etdiyi qanun pozuntuları ilə bağlı dairə seçki komissiyasına hər hansı bir fakt təqdim etməmiş, səsvermə günü və ondan sonrakı gün həmin seçki məntəqələrindən səsvermə prosesi və nəticələrin rəsmiləşdirilməsi ilə bağlı iddia olunan qanun pozuntusu barədə ərizəçi və digər şəxsər tərəfindən komissiyaya yazılı və ya şifahi şikayət daxil olmamış, Saatlı bələdiyyəsi üzrə bütün seçki məntəqələrində səsvermə yüksək seçici fəallığı ilə keçmiş, 3 seçki məntəqəsində olan veb-kamera vasitəsi ilə aparılmış müşahidələr zamanı hər hansı bir pozuntu qeydə alınmamış, məntəqə seçki komissiyaları tərəfindən səsvermənin nəticələrinə dair protokollar Seçki Məcəlləsinin tələblərinə uyğun tərtib olunmuş və qanunla müəyyən edilmiş müddətdə və qaydada dairə seçki komissiyasına çatdırılmışdır.

Araşdırma zamanı müəyyən edilmişdir ki, qeydə alınmış namizəd T.R.Nəzərli keçirilmiş bələdiyyə seçkilərində öz maraqlarını müdafiə etmək və digər seçki hərəkətlərini həyata keçirmək üçün müşahidəçi, səlahiyyətli nümayəndə, vəkil edilmiş şəxs və məşvərətçi səs hüquqlu komissiya üzvü təyin etməmiş, seçki məntəqələrində iddia edilən pozuntuları namizədin özü və ya onun maraqlarını təmsil edən subyektlər tərəfindən müşahidə edilməmişdir. Bu hal da namizədin iddialarının hüquqi əsaslılığını

aradan qaldırır. Həmin seçki dairəsi üzrə 1, 2, 3, 4, 5, 6, 7, 8, 37 və 38 saylı seçki məntəqələri məntəqə seçki komissiyasının sədrləri tərəfindən təqdim edilmiş izahatlarından görünür ki, T.R.Nəzərli səsvermə günü həmin seçki məntəqələrində səsvermə başlanandan başa çatanadəkolan müddətdə, həmçinin, səsvermənin nəticələrinin rəsmiləşdirilməsi prosesində seçki məntəqələrində olmamış, həmin gün saat 16:00 radələrində 6 saylı seçki məntəqəsinə səsvermək üçün gəlmiş, səs verdikdən sonra isə məntəqəni tərk etmiş, heç bir seçki məntəqəsi üzrə səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının pratokolunu tələb etməmişdir.

Qeyd edilənlərə əsasən müəyyən edilmişdir ki, T.R.Nəzərlinin müraciətində güman edilən pozuntunun dəliləri, o cümlədən, pozuntunun nədən ibarət olduğunun izahı belə verilməmişdir.

Göstərilənlərə əsasən şikayətin təmin edilməsi və dairə seçki komissiyasının 27 dekabr 2019-cu il tarixli 39/93 saylı qərarının ləğv olunması üçün hüquqi əsaslar müəyyən edilmədiyindən müraciət əsassız hesab olunaraq təmin edilməməli, dairə seçki komissiyasının həmin qərarı dəyişdirilmədən saxlanılmalıdı.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1.1-ci, 1.2-ci, 4.1.2-ci, 7.1-ci və 7.10.2-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 62 saylı Saatlı seçki dairəsindən Saatlı bələdiyyəsi üzrə qeydə alınmış namizəd Nəzərli Təzəgül Rza qızının 4 yanvar 2020-ci il tarixli 56 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 27 dekabr 2019-cu il tarixli 39/93 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Rafiq Abbasov